# MUSTAFAYEV ALI MUSTAFA OĞLU



Mustafayev Alı Mustafa oğlu 14 aprel 1952-ci ildə Qazax rayonunun Qazaxbəyli kəndində doğulmuşdur. 1959-cu ildə Qazaxbəyli kənd səkkizillik məktəbinə getmiş, 1969-cu ildə Daş Salahlı kənd orta məktəbini bitirmişdir. 1971-ci ildə həqiqi hərbi xidmətə çağırılmışdır. 1973-cü ildə əsgəri xidmətini başa vurub, Bakı Elektrik Maşınqayırma zavodunda əmək fəaliyyətinə başlamışdır. Alı Mustafayev 1976-cı ildə zavod həmkarlar təşkilatının və zavod rəhbərliyinin göndərişilə ADU-nun (indiki Bakı Dövlət Universiteti - red.) jurnalistika fakültəsinə daxil olur. 1981-ci ildə təhsilini başa vurub, Azərbaycan Dövlət Teleradio Şirkətinin "Xəbərlər" proqramında jurnalist kimi fəaliyyətə başlayır. Çox keçmir ki, "İlin ən yaxşı jurnalisti", "Qızıl qələm" mükafatlarına layiq görülür. O, işləyə-işləyə təhsilini davam etdirərək Bakı Ali Partiya Məktəbini də bitirir. O, çevik, qorxmaz bir telejurnalist idi, qaynar nöqtələrdən reportajlar hazırlamağa birinci gedirdi. 20 noyabr 1991-ci ildə Tuğ, Xocavənd, Qaradağlı kəndlərində törədilən faciələrlə yerində tanış olmaq üçün gedən hökumət nümayəndələrini aparan hərbi vertolyot erməni terrorçuları tərəfindən Qarakənd kəndi yaxınlığında vuruldu. Nəticədə 23 nəfər sayseçmə insan faciəli surətdə həlak oldu. Alı Mustafayev də onların arasında idi. Bakı şəhərinin Şəhidlər xiyabanında dəfn edilmişdir. Ailəli idi. Üç oğul övladı qalıb. Azərbaycan Respublikası prezidentinin 6 noyabr 1992-ci il tarixli 294 saylı fərmanı ilə Mustafayev Alı Mustafa oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilmişdir. Ölümündən sonra "Respublikanın əməkdar jurnalisti" fəxri adına layiq görülmüşdür. 1991-ci ildə Bakının Nərimanov rayonundakı 202 saylı orta məktəbinə, 1993-cü ildə isə Ağstafa rayonu Həsənsu kənd, Qəbələ rayonu Hacıalılı kənd, Qazax rayonu Qazaxbəyli kənd, Ağcabədi rayonu Yuxarı Qiyaməddinli kənd, Saatlı rayonu Qırağlı kənd, Qubadlı rayonu Zilanlı kənd orta məktəblərinə Milli Qəhrəman, tanınmış jurnalist Alı Mustafayevin adı verilmişdir. 3-cü mikrorayondakı küçələrdən biri onun adını daşıyır.